# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"

**(Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2025-ci il 28 fevral tarixli 374/4 nömrəli Qərarı ilə təsdiq edilmişdir)**

### XÜSUSİ TƏLƏBLƏRİ HAZIRLAYANLAR:


**İşçi qrupunun sədri:**

**Səbuhi Gülməmmədov - Auditorlar Palatasının icraçı direktoru**

**İşçi qrupunun üzvləri :**

**Qəşəm Bayramov – Auditorlar Palatası Aparatının rəhbəri**

**Nəcəf Talıbov – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri**

**Vasif Cavadov – Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi**

**Altay Cəfərov – Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor**

**Elçin Əliyev – Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədri, "BKR Consulting" MMC-nin direktor-auditoru**

**Ənvər Aslanov – Palatanın Şurası yanında Auditin hüquqi təminatı üzrə komitənin sədri, sərbəst auditor**



**BAKI – 2025**

# MÜNDƏRİCAT

**I. Ümumi müddəalar..........................................................................................3**

**II. Əsas anlayışlar.........................................................................................3-4**

**III. Kənar auditora dair tələblər.....................................................................4-5**

**"İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər**

## I. Ümumi müddəalar

Xüsusi Tələblər "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və 2024-cü il 29 dekabr tarixli 372/5 nömrəli "Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə dair arayış barədə" qərarına uyğun olaraq hazırlanmışdır. Bu Tələblər ictimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara dair tələbləri müəyyən edir.

Bu Tələblər yalnız həmin qurumlarda maliyyə hesabatlarının auditi zamanı tətbiq edilir. Bu Tələblər ictimai əhəmiyyətli qurumlar və publik hüquqi şəxslərin öz təşəbbüsü ilə aparılan kənar auditə və digər auditor xidmətlərinə şamil edilmir.

Bu Tələblər Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (bundan sonra - MHBS) uyğun olaraq maliyyə hesabatlarını birləşdirən (konsolidə edən) törəmə təsərrüfat cəmiyyətlərinin auditinə də şamil edilir.

## II. Əsas anlayışlar

**2.1.** Tələblərdə istifadə olunan anlayışlar bu Tələblərin məqsədləri üçün aşağıdakı mənaları ifadə edir:

**2.1.1. İctimai əhəmiyyətli qurumlar –** qanunvericiliklə müəyyən edilmiş qaydada İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslər (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 oktyabr tarixli 321 nömrəli qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumların siyahısı" ilə müəyyən edilmiş hüquqi şəxslər;

**2.1.2. Publik hüquqi şəxs –** dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət *və (və ya) ictimai* əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır;

**2.1.3. audit subyektləri –** kənar auditor tərəfindən yoxlanılan ictimai əhəmiyyətli qurumlar və publik hüquqi şəxslərdir;

**2.1.4. kənar audit -** İctimai əhəmiyyətli qurumların və publik hüquqi şəxslərin maliyyə hesabatlarının müstəqil yoxlanması və qiymətləndirilməsidir;

**2.1.5. kənar auditor –** İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə kənar auditi həyata keçirən Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən auditor fəaliyyəti göstərmək üçün icazə almış auditor təşkilatı və ya sərbəst auditordur;

**2.1.6. auditor qrupu –** auditor təşkilatının İctimai əhəmiyyətli qurumlarların maliyyə hesabatlarının auditində birbaşa iştirak edən xüsusi qrupdur. Audit qrupunun üzvləri sayı üç nəfərdən aşağı olmamaq şərti ilə audit qrupunun rəhbəri, auditorlar, auditor asistentləri, ekspert, mütəxəssis, həmçinin auditə cəlb edilən digər şəxslərdən ibarətdir;

**2.1.7. mütəxəssis –** xüsusi biliklərə malik olan, kənar auditorun ştat işçisi və ya cəlb etdiyi fiziki şəxsdir;

**2.1.8. Keyfiyyətə kənar nəzarət –** sərbəst auditorlar və auditor təşkilatları tərəfindən Peşə standartlarının tələblərinə riayət olunmasının Auditorlar Palatası tərəfindən monitorinqi;

**2.1.9. aidiyyəti şəxslər –** Azərbaycan Respublikasının Mülki Məcəlləsini 49-1 maddəsidə müəyyən edilmiş şəxslərdir;

**2.1.10. Beynəlxalq Audit Standartları** - Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) Audit və Təsdiqləmə Standartları üzrə Şurası tərəfindən hazırlanmış tarixi maliyyə məlumatlarının yoxlanılması üçün istifadə olunan standartlardır.

## III. Kənar auditora dair tələblər

**3.1.** İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə aparılan kənar audit aşağıdakı tələblərə cavab verməlidir:

**3.1.1** tərkibində ən azı iki auditor olmaqla auditor qrupu tərəfindən aparılmalıdır;

**3.1.2** kənar auditorun audit sahəsində fəaliyyəti fasiləsiz olaraq 5 ildən yuxarı olmalıdır;

**3.1.3** audit subyektlərinin aidiyyəti şəxsi olmamalıdır;

**3.1.4** son üç ildə ən azı bir dəfə keyfiyyətə kənar nəzarətdən keçmiş olmalı və monitorinq nəticəsində aldığı son qiymət 4 baldan aşağı olmamalıdır;

**3.1.5** kənar auditorun İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə apardığı auditlər hər il keyfiyyətə nəzarət üzrə monitorinqdən keçməli və monitorinq nəticəsində aldığı qiymət 4 baldan aşağı olmamalıdır;

**3.1.6** kənar auditor maraqların toqquşmasını yaradan və ya belə toqquşmanın yarana bilməsinə səbəb ola biləcək hərəkətlərə yol verməməlidir;

**3.1.7** peşə məsuliyyəti icbari sığortalanmalı və sığorta məbləği 10 min AZN-dən az olmamalıdır;

**3.1.8** kənar auditorun büdcə qarşısında vaxtı keçmiş borcu olmamalıdır;

**3.1.9** kənar auditor il ərzində ciddi tənbeh tədbirlərinə cəlb edilməmiş olmalıdır;

**3.1.10** kənar auditor il ərzində ən azı 40 saat peşə ixtisası səviyyələrinin artırılması təlimlərində iştirak etməlidir (yerli və ya beynəlxalq);

Auditorlar Palatası hər ilin noyabr ayının 30-na kimi bu tələblərə cavab verən kənar auditorların siyahısını tərtib edir və mütəmadi yenilənməsini təmin edir. Həmin siyahı Auditorlar Palatasının internet saytında yerləşdirilir.